# XRONOLOGİYA

| | |
|---|---|
| **28 may 1918-ci il** | Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi. |
| **19 may 1921-ci il** | Azərbaycan SSR-nin ilk Konstitusiyası 1-ci Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmişdir. |
| **14 mart 1925-ci il** | 4-cü Ümumazərbaycan Sovetlər qurultayında Konstitusiyayada dəyişiklik və əlavələr edilmişdir. |
| **26 mart 1927-ci il** | 5-ci Ümumazərbaycan Sovetlər qurultayında Konstitusiyayada dəyişiklik və əlavələr edilmişdir. |
| **14 fevral 1931-ci il** | 7-ci Ümumazərbaycan Sovetlər qurultayında Konstitusiyayada dəyişiklik və əlavələr edilmişdir. |
| **11 yanvar 1935-ci il** | 8-ci Ümumazərbaycan Sovetlər qurultayında Konstitusiyayada dəyişiklik və əlavələr edilmişdir. |
| **14 mart 1937-ci il** | Azərbaycan SSR Konstitusiyası SSRİ Konstitusiyası əsasında, Fövqəladə 9-cu Ümumazərbaycan Sovetlər qurultayında qəbul olmuşdur. |
| **21 aprel 1978-ci il** | Azərbaycan SSR-in qəbul edilmiş son Konstitusiyası da əvvəlki Konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə idi. |
| **1980-ci illərin ikinci yarısı** | 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR-in Konstitusiyası çoxsaylı əlavə və dəyişikliklərə məruz qalmış və bunun nəticəsində ilkin redaktəyə nisbətən əhəmiyyətli şəkildə dəyişikliyə uğramışdır. |
| **18 oktyabr 1991-ci il** | Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı - Azərbaycan Ali Sovetində aparılan müzakirələrdən sonra qəbul edilmişdir. Bu Konstitutsiya Aktı |

| | |
|---|---|
| | ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edilmişdir. |
| **29 dekabr 1991-ci il** | Konstitutsiya Aktı ümumxalq referendumunda müzakirəyə çıxarılıb və əhalinin 95%-i səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verib. |
| **13 yanvar 1992-ci il** | Azərbaycan Respublikasının dövlət suverenliyini və ərazi bütövlüyünü pozan hərəkətlərin yolverilməzliyi haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurası Qərar qəbul etmişdir. |
| **2 may 1995-ci il** | Azərbaycan Respublikası Milli Məclisinin qərarına əsasən Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyası yaradılmışdır. |
| **3 oktabr 1995-ci il** | Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi haqqında ümumxalq səsverməsinin (referendumunun) keçirilməsi barədə Azərbaycan Respublikası Milli Məclisi Qərar qəbul etmişdir. |
| **12 noyabr 1995-ci il** | Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq referendumu ilə qəbul olunmuşdur. |
| **27 noyabr 1995-ci il** | Ümumxalq səsverməsinin nəticələri nəşr edildiyi andan qüvvəyə minmişdir. |
| **6 fevral 1996-cı il** | Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə noyabrın 12-i Konstitusiya günü elan edildi. |
| **29 dekabr 1998-ci il** | Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edildi. |
| **22 iyun 2002-ci il** | Azərbaycan Respublikası prezidentinin 22 iyun 2002-ci il tarixli 722 saylı fərmanına əsasən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası referendum aktının yeni layihəsi hazırlanmışdır. |

| | |
|---|---|
| **24 avqust 2002-ci il** | Keçirilən referendumda qüvvədə olan Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur. |
| **2004-cü il** | Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında Qanun qəbul edilmişdir. |
| **26 dekabr 2008-ci il** | Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi ilə əlaqədar qərar qəbul etmişdir. |
| **18 mart 2009-cu il** | Keçirilən referendumda qüvvədə olan Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur. |
| **18 iyul 2016-cı il** | Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı layihəsi barədə sərəncam imzaladı. Layihəyə görə Azərbaycan Respublikasının Konstitusiyasının 42 maddəsinə 29 dəyişiklik təklif edilirdi. |
| **26 sentyabr 2016-cı il** | Keçirilən referendumda qüvvədə olan Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur. |
| **19 sentyabr 2024** | Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. |
| **28 dekabr 2024** | Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır. |
| **11 fevral 2025** | “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır. |